# Xankəndi kamandan oxatma yarışlarını qəbul edəcək

**İşğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş abadlıq-quruculuq işləri aparılır. Azad edilmiş ərazilərdə müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da əsas diqqət mərkəzindədir. Heç şübhə yoxdur ki, tezliklə yeni olimpiya idman komplekslərinin, digər idman obyektlərinin inşa ediləcəyi əsas məkanlardan biri də bu ərazilərimiz olacaq.**

Avarçəkmədən tutmuş güləşə, şahmatdan başlamış müxtəlif digər intellektual və komanda oyunlarına qədər, eləcə də bir çox digər idman növündə Azərbaycanı layiqincə təmsil edəcək yeni idmançılar nəsli işğaldan azad olunmuş ərazilərimizdə də yetişəcəklər.

Ötən çıxışlarından birində Prezident İlham Əliyev qeyd edib ki, tarixi Zəfərdən dərhal sonra azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq-bərpa işlərinə başlanılıb və keçmiş məcburi köçkünlərin yaşayışı üçün inşa edilən evlərlə yanaşı, idman infrastrukturu da yaradılır: "Bəziləri hesab edə bilər ki, bu, bir az tezdir. Amma mən hesab edirəm ki, bu, mütləq olmalıdır. Çünki bu idman obyektlərinin həm rəmzi mənası, həm də funksional tərəfi var. Məsələn, İmarət stadionunun inşa edilməsi - bunun çox böyük rəmzi mənası var. İndi Ağdam şəhərində yeni, bütün beynəlxalq standartlara cavab verən stadion inşa edilir. Füzuli şəhərində olimpiya idman kompleksinin təməli qoyulub. Suqovuşan və Kondələnçay su anbarlarında artıq beynəlxalq avarçəkmə yarışları keçirilir. Şuşa şəhərində bir neçə idman yarışı keçirilmişdir. Xankəndi şəhərindəki stadion, - hansı ki, Azərbaycan büdcəsi hesabına hələ keçən əsrin 50-ci illərində inşa edilmişdir, - əsaslı şəkildə təmir edilir, demək olar ki, yenidən qurulur".



Beynəlxalq tədbirlər məkanına çevrilən ölkəmizdə təşkil edilən III MDB Oyunları Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöllə yanaşı, işğaldan azad edilən Xankəndidə də keçirilir və qalib adı uğrunda gərgin mübarizə davam edir.

Xankəndi şəhəri oktyabrın 2-dən 5-dək kamandan oxatma üzrə yarışlara evsahibliyi edəcək. Oxatma dəqiqlik, diqqət və nəzarət tələb edən bir idman növüdür. İdmançılar yaydan istifadə edərək oxları hədəfə atır və ən yüksək xalı toplamağa çalışırlar. Bu idman növü fiziki gücü, əl-göz koordinasiyasını və zehni intizamı inkişaf etdirir. Oxatma qədim tarixə malikdir və bir zamanlar ovçuluq və döyüş sənətində mühüm bacarıq hesab olunurdu. Oxatma Olimpiya Oyunlarında və beynəlxalq turnirlərdə də yer alır. Səbir, diqqət və özünə nəzarəti inkişaf etdirdiyi üçün bu idman növü həm fiziki, həm də zehni bacarıqları sınağa çəkir.

Göründüyü kimi, bu gün MDB dünyasının nəbzi Azərbaycanda atır. Azərbaycan idmanı tarixinin çox şərəfli və tərəqqi dövrünü yaşamaqdadır. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğının bəhrəsidir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 30 sentyabr (№ 209).- S.10.